# "ELM VƏ MEDİA: MULTİDİSİPLİNAR İSTİQAMƏTLƏR VƏ PERSPEKTİVLƏR" ADLI ELMİ-PRAKTİK KONFRANS KEÇİRİLİB





Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsi (İƏEPİ) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Milli Mətbuatın 140 illik yubileyinə həsr olunmuş "Elm və media: multidisiplinar istiqamətlər və perspektivlər" adlı elmi-praktik konfrans keçirilib.

Tədbirdə AMEA tərkibində fəaliyyət göstərən elmi müəssisə və təşkilatların rəhbərləri, AMEA Rəyasət Heyətinin üzvləri və Azərbaycan Mətbuat Şurasının idarə heyətinin üzvləri, o cümlədən ölkənin tanınmış media orqanlarının rəhbərləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq qonaqları salamlayıb. Ölkəmizdə fəaliyyət göstərən KİV-lərin fəaliyyətinə yüksək qiymət verdiyini deyən AMEA prezidenti istər rəsmi dövlət qəzetləri, istərsə də müstəqil media orqanları ilə AMEA arasında geniş əməkdaşlıq əlaqələri qurulduğunu, faydalı işgüzar münasibətlərin əsasının qoyulduğunu iştirakçıların diqqətinə çatdırıb. Akademiyanın təbliğində, eləcə də elmin populyarlaşdırılması istiqamətində görülən bütün işlərdə jurnalistlərin mühüm rola malik olduğunu bildirib.

Elmi-praktik konfransda akademik fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə və tərəqqiyə çağırmaq, onlara milli-mənəvi və ümumbəşəri dəyərləri təbliğ etmək və elmi-mədəni səviyyəni yüksəltməyi əsas hədəf seçən "Əkinçi" qəzetinin 1875-ci il iyulun 22-də işıq üzü görməsi ilə Azərbaycanda nəinki milli mətbuatın, eləcə də xalqımızın milli şüurunun, xalqın azadlıq mübarizəsinin əsasının qoyulduğunu, qəzetin Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim, pedaqoq, ictimai xadim Həsən bəy Zərdabinin yorulmaz əməyi sayəsində 56 sayı ilə bir inqilab etdiyini diqqətə çatdırıb.

O, mətbuatın müasir vəziyyətinin ulu öndər Heydər Əliyevin uğurlu davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yürüdülən mətbuat siyasəti ilə birbaşa bağlılıq təşkil etdiyini də qeyd edib. Bildirib ki, Azərbaycanda uğurlu fəaliyyət göstərən 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarca yayım şirkətləri və jurnalist təşkilatları da bu siyasətin bəhrəsidir. Vurğulanıb ki, elm və mətbuat əlaqələrinin hazırkı durumu çoxşaxəli və faydalı xüsusiyyətləri ilə seçilir. Akademiya öz fəaliyyətini daim ölkəmizdə yayımlanan kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirir. Eyni zamanda Akademiya tərəfindən həyata keçirilən hüquq və kadr islahatları, elmi-kütləvi toplantılar və görüşlər, bu kimi digər tədbirlərin işıqlandırılmasında milli mətbuatımızın daim əzmlə çalışdığını, multidisiplinar istiqamətlər üzrə aparılan tədqiqatlar, onların nəticələri, eləcə də alimlərimizin beynəlxalq tədbirlərdə iştirakının mətbuatın gündəmində geniş təbliğ olunduğunu öz çıxışında qeyd edib.

Sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək qarşıdan gələn mətbuat günü münasibətilə mətbuat işçilərini təbrik edib. Ölkə rəhbərinin "Milli Mətbuatın 140 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamının ölkəmizdə təntənə ilə qarşılanmasından məmnunluğunu ifadə edib. Elm və medianın son illər ölkəmizdə daha çox inkişaf edən və mühüm nailiyyətlər əldə edən sahələr olduğunu deyən sədr hər iki istiqamətdə əsaslı irəliləyişlərə nail olunduğunu bildirib. Əflatun Amaşov jurnalistikanın sosial statusunun müəyyənləşməsi, medianın idarəçilikdəki yeri və rolu ilə bağlı cəmiyyətdə bilgilərin artırılmasında KİV-lərə dövlət qayğısının, həmçinin bu yöndə görülən işlərin əhəmiyyətindən danışıb. Konfransda mətbuatın müstəqil fəaliyyət göstərməsi və IV hakimiyyət kimi çıxış edən jurnalistikanın inkişafının dəstəklənməsi üçün ölkə Prezidentinin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən formalaşdırılan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun həyata keçirdiyi tədbirləri xatırladıb.

Daha sonra elm sahəsində əldə edilən uğurlardan, ölkəmizin elmə sistemli qayğısından danışan natiq elmi nəticələr artdıqca tətbiqi istiqamətlərin və elmin bütün həyatımıza təsirinin genişləndiyini söyləyib. Qeyd edib ki, məlumatların ictimaiyyətə çatdırılması ayrı-ayrı təbəqə və sosial qrupların mənafeyinə xidmət baxımından müstəsna səciyyə daşıyır.

Sonda Azərbaycan Milli Elmlər Akademiyasının təbliğat işinə verəcəyi töhfəni və Milli Mətbuatın 140 illik yubileyini nəzərə alaraq, elmin təbliği işində daha çox xidmət göstərən, obyektiv və faydalı əməkdaşlıq əlaqələri qurulan 30-a yaxın media orqanı Akademiya rəhbərliyi tərəfindən diplomla mükafatlandırılıb.

**Samir ZEYNALOV,**
**"Respublika".**